Azərbaycan Dövlət Pedaqoji Universiteti Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri №1, 2019, **s. 113-117**
Азербайджанский Государственный Педагогический Университет Актуальные проблемы музыкальной науки, культуры и образования №1, 2019, **c. 113-117**
Azerbaijan State Pedagogical University Actual problems of the science, culture and education of music №1, 2019, **pp. 113-117**

UOT 78.071.1

İ.E.Abdullayeva
Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası
Az 1014, Bakı ş., Ş.Bədəlbəyli küç. 98
E-mail: ilahe.abdullayeva1990@mail.ru

MÜSLÜM MAQOMAYEV HAQQINDA MÜLAHİZƏLƏR

Açar sözlər: *opera, muğam, ilk dirijor, orkestr, Avropa üslubu*

Məqalədə Azərbaycanın əməkdar incəsənət xadimi Müslüm Maqomayevin bəstəkar, dirijor, folklorçu və publisist kimi xarakteristikası verilir. Sənətkarın opera yaradıcılığının tarixi əhəmiyyəti, milli opera janrının təşəkkülü və inkişafında rolu müəyyən edilir. M.Maqomayevin musiqili-tənqidi baxışlarının dövrün tələblərinə cavab verməsi barədə fikirlər söylənilir.

И.Э.Абдуллаева

МЫСЛИ О МУСЛИМЕ МАГОМАЕВЕ

Ключевая слова*: опера, мугам, первый дирижёр, оркестр, европейский стиль*

В предлагаемой статье Муслим Магомаев характеризуется как композитор, дирижер, фольклорист и публицист. Определяется историческое значение оперного творчества художника и роль его музыкально-сценических произведений в становлении и развитии национального оперного жанра. В статье высказываются мысли о музыкально-критических взглядах М.Магомаева и отмечается их соответствие требованиям времени.

I.E.Abdullayeva

THOUGHTS ABOUT MUSLIM MAGOMAYEV

Key words: *opera, mugam, the first conductor, orchestra, in European style*

In this article, Muslim Magomayev is described as a composer, conductor, folklorist, and publicist. The historical significance of the artist's opera and the role of his musical and stage works in the formation and development of the national opera genre are determined. The article expresses

thoughts about the musical-critical views of M. Magomaev and notes their compliance with the requirements of the time.

Müslüm Maqomayev əsl realist xalq bəstəkarı idi,
Azərbaycan musiqi incəsənəti yolunda duran bütün sədləri
amansızcasına vurub dağıdan cəsarətli novator idi.

Ü.Hacıbəyli

Əməkdar incəsənət xadimi Müslüm Maqomayev dahi Üzeyir Hacıbəylinin həmkarı, məslək dostu, Azərbaycan bəstəkarlıq məktəbinin təməlini qoyanlardan biri kimi milli musiqi tarixinə öz adını yazmışdır. Təbiətin qəribə bir təsadüfi nəticəsində qüdrətli sənətkarlar eyni ildə və gündə anadan olmuşlar. Görkəmli bəstəkar, dirijor, folklorçu və ictimai xadim, M.Maqomayev "Şah İsmayıl" muğam operası, ilk Azərbaycan klassik Avropa üslubunda yazılmış "Nərgiz" operasının müəllifidir. O, həm də ilk professional dirijorlarımızdan olaraq, bir çox musiqili-səhnə əsərlərin səhnələşdirilməsində böyük rol oynamışdır.

Həyatının 30 ilini Azərbaycanın xalq maarifinə, incəsənətinə həsr etmiş və musiqili teatrının banilərindən biri olan M.Maqomayevin ailə üzvlərinin musiqiyə həvəsi və məhəbbəti onun gələcəkdə bəstəkar kimi formalaşmasına təsir göstərmişdir. Təhsil aldığı Zaqafqaziya müəllimlər seminariyasında əsas dərslərlə yanaşı o, violino və hoboy çalmağı, musiqi nəzəriyyəsi fənnlərini öyrənmişdir. M.Maqomayev seminariyada təşkil olunmuş kamera və nəfəs orkestrlərində bəzən dirijoru əvəz etmiş, böyük həvəslə tələbə xorunda oxumuşdur. Bu illərdə o, Motsart, Bethoven, Bize, Verdi, Qlinka, Çaykovski və başqa dahi bəstəkarların əsərləri ilə tanış olmuşdur. Müəlimi Qoqliçidzenin məsləhəti ilə müxtəlif xalqların folklor nümunələrini nota köçürmüşdür. Onlar böyük maraq doğurduğuna görə, 1900-cu ildə Parisdə keçirilən ümumdünya sərgisinin ekspozisiyasında nümayiş etdirilmişdir. Gənc Müslüm seminariyadakı təhsil illərində fortepiano üçün "Seminarist" mazurkası, "Xəyal" valsı və bir sıra digər kiçik əsərləri bəstələmişdir. Bu təhsil ocağında o, Üzeyir Hacıbəyli ilə tanış olmuş və həyatının sonunacan onunla dostluq etmişdir. Məhz Üzeyir bəyin dəvəti ilə M.Maqomayev 1911-ci ildə Bakıya köçmüş və bir il sonra dahi sənətkarın "Əsli və Kərəm" operasında dirijor kimi çıxış etmişdir.

F.Əmirov hər iki bəstəkarın Azərbaycan incəsənətindəki uğurlu yaradıcılıq yolunu qiymətləndirirərək belə demişdir: "Onların musiqi sahəsindəki qəhrəmanlığı, bir insan kimi fədakarlıqları, Azərbaycan incəsənətinin taleyində onların fəaliyyətini əhəmiyyəti gözlərimiz önündə yeni, böyük bir qüvvə ilə canlanır və Azərbaycan xalqının mədəniyyət tarixinə hələ də böyük maraq doğuran

ən parlaq səhifələrdən birini yazmış bu iki qəhrəmana adamın qəlbində böyük məhəbbət və minnətdarlıq hissləri oyadır ".

Uzun zaman opera teatrında fəaliyyət göstərən M.Maqomayev istedadlı dirijor kimi tanınmışdır. Dövrün əksər muğam opera və operettaları, bəzi klassik operaların ilk dirijoru kimi milli musiqili teatrın formalaşmasında müstəsna rol oynamışdır. Bu əsərlər sırasında Ü.Hacıbəylinin "Arşin mal alan" operettası, özünün "Şah İsmayıl" və "Nərgiz", Z.Hacıbəyovun "Aşıq Qərib" muğam operalarını xatırlamaq olar.

Opera teatrının rəhbəri və baş dirijoru kimi çalışan M.Maqomayevin opera janrına marağı oyanır və 1913-1914–cü illər ərzində o, "Məhəbbət" adlı opera bəstələməyə çalışır. Lakin tezliklə bu fikirdən daşınır və diqqətini "Sah İmayıl" dastanında cəmləşdirir. Bu muğam operası 1916-cı ildə tamamlandığına baxmayaraq, teatrda baş verən yanğınla əlaqədar yalnız 1919-cu ildə səhnələşdirilmişdir. Qədir İsmayılovun xalq əfsanəsi əsasında yazılmış librettosunu bəstəkar yenidən işləmiş və Azərbaycan opera janrına "Döyüşən qadın" – Ərəbzəngi obrazını daxil etmişdir. Böyük müvəffəqiyyət qazanmış bu əsəri sonralar bəstəkar dəfələrlə redakta etmiş, impovizasiyalı bölmələri azaltmış, notla yazılmış hissləri genişləndirmişdir.

Müslüm müasiri olduğu dahi Üzeyir bəyin zəngin yaradıcılığından bəhrələnsədə, dəstxətinin təsiri altına düşmür, "dublyora" çevrilmir. Sənətkarın özünəməxsus intonasiya, orijinal musiqisi hər zaman tanınır və seçilir. Belə ki, Üzeyir bəyin dünyası obyektivliyi, müdrik təmkini və ahəngdarlığı ilə seçilirsə, M.Maqomayevin yaradıcılığı mahiyyətcə subyektiv, kəskin emosionallığa, romantik affektli ifadə tərzinə meyl göstərir. Üzeyir bəyin musiqidə Şərq və Qərb sintezi ideyasını özünəməxsus tərzdə həll edir, onların vəhdətinə nail olmağı çalışır. O, da, Ü. Hacıbəyli kimi milli musiqi mədəniyyətində Avropa musiqisinə məxsus janrların mənimsənilməsində əhəmiyyətli rol oynayır, bəzi bədii proseslərin həyata keçməsini sanki sürətləşdirir. "Şah İsmayıl" operasının son redaktasında o, artıq dördsəsli qarışıq xordan istifadə edir və xor fakturasını zənginləşdirir. Bu əsərdə muğam və klassik opera prinsiplərini birgə tətbiq edir. Operada epik "muğam" qəhrəmanlarla yanaşı, Avropa oxuma tərzində yazılmış lirik –psixoloji "Aslan şah"ın obrazı böyük maraq doğurur.

M.Maqomayev anlayır ki, milli opera janrını yalnız klassik opera sənətinin nəaliyyətləri ilə inkişaf etdirmək olar. Bunun üçün o, əsəri dəfələrlə redakta edir. Əldə etdiyi böyük yaradıcılıq müvəffəqiyyətinə görə özünə bir müddət "Çahargah" təxəllüsünü götürür. Doğrudan da "Şah İsmayıl" operasının birinci pərdəsində çahargah muğamı əsasında simfonik orkestr üçün məharətlə bəstələnmiş vokal və orkestr epizodları, xüsusilə reçitativ parçalar o zaman üçün müəyyən bir yenilik idi.

M.Maqomayev Bakıdakı Böyük dövlət teatrında ayrılıqda fəaliyyət göstərən iki – Azərbaycan və rus opera truppalarının birləşməsi uğrunda çalışan ziyalılarımızdan olmuşdur. XX əsrin 20-ci illərində milli opera sənətinin gələcək

taleyi barədə diskussiyalar gedən dövrdə sənətkar yazır: "Düşünürəm ki, türk operasının normal inkişafı üçün o Böyük dövlət teatrına keçirilməlidir"[1].

Doğrudanda, bunun nəticəsində türk operasının bədii səviyyəsi daha da qalxır, o simfonik orkestr, gözəl xor, balet və s. ifaçıların oyunundan bəhrələnməyə imkan qazanır.

1929-cu ildə M.Maqomayev Azərbaycan radio mərkəzinin musiqi rəhbəri təyin olunur. Musiqi verlişlərinin repertuar seçiminə diqqətlə yanaşaraq o, təkrarçılığı aradan qaldırır, muğamlar, xalq mahıları və rəqslərlə radio efirini zənginləşdirir. Dövrün əksər görkəmli ifaçılarını bu işə cəlb edərək, milli musiqi mədəniyyətinin təbliği ilə məşğul olur. Bu illər ona böyük köməkliyi Ü.Hacıbəyli edir, hansıki 1931-ci ildə notlu xalq çalğı alətləri orkestrini təşkil edir. Bu orkestr daima radioda çıxış edir, milli və qeyri milli musiqi nümunələrini səsləndirir və xalqın musiqi mədəniyyəti baxımından maariflənməsində böyük rol oynayır.

XX əsrin əvvəlində Azərbaycan xalqının həyatında sosial dəyişikliklərlə əlaqədar və dövrün tələblərinə əsasən M. Maqomayev yaradıcılığının zirvəsi olan "Nərgiz" operasını yaradır. Əgər "Şah İsmayıl" muğam operalarımız içərisində ən yaxşılardan biridirsə, "Nərgiz" – klassik tipli ilk musiqili-səhnə əsəridir. Bəstəkarın ikinci musiqili səhnə əsəri milli opera janrının inkişafında böyük rol oynamışdır.

"Nərgiz" operasında akkord-harmonik tərzdə olan xor yazısı, "Şah İsmayıl" operasında unison oxumanı dəf edir. "Şah İsmayıl" operasında ilk dəfə döyüşçü qadın obrazı verilir, "Nərgiz" də isə bəstəkar öz müdafiəsinə qalxmış, üsyana qoşulan qadın obrazını yaratmağa çalışır. Lakin librettodan fərqli olaraq, öz musiqili səciyyəsinə görə Nərgiz lirik personajdır. 1935-ci ildə səhnədə qoyulan bu əsərin nöqsanları M. Maqomayev düzəlməyə planlaşdırır, lakin uzun sürən xəstəlikdən sonra 1937-ci ildə vəfat edir.

Bəstəkarın "Nərgiz" operasında həyata keçirmək istədiyi dəyişiklikləri R.M.Qlier edir, operanın bir sıra fraqmentləri isə Niyazi tərəfindən yenidən orkestrləşdirilir.

"Nərgiz" operası o dövrün mahnıvari operaları çərçivəsində yazılmışdır. Mahnıvarilik operanın intonasiya aləmi, forma xüsusiyyətlərinə təsir göstərir və eyni zamanda, Azərbaycan şıfahi ənənəli xalq musiqisinin müxtəlif janrlarının cizgiləri ilə birləşir. Əsərdə mahnıvari operalar üçün səciyyəvi olan formalarla yanaşı, ənənəvi olmayan ariya və reçitativlərdə mövcuddur. Onların vasitəsilə bəstəkar rəngarəng musiqili-səhnə xarakteristikaları yaratmağa nail olur.

"Nərgiz" həm də ilk Azərbaycan operasıdır ki, burada qrotesk-parodiya layına rast gəlinir. M.Maqomayev bunu müxtəlif janrlar vasitəsilə həyata keçirir.

İllər ərzində sənətkar milli musiqi mədəniyətimizin fəal təbliğatçısı, folklorçu kimi fəaliyyət göstərmişdir. O, Ü.Hacıbəylinin muğam operaları və operettalarına

[1] Müslüm Maqomayevin şəxsi arxivi. 1924 //stat "Г.Исмайлова. Муслим Магомаев. Баку, 1986» kitabından götürülmüşdür.

qarşı söylənən fikirlərə, bu əsərlərin tarixi və bədii əhəmiyyətini inkar edən insanlara daima cavab vermişdir. 1927-ci ildə isə onun Ü.Hacıbəyli ilə birgə "Azərbaycan türk xalq mahnıları" adlı toplusu işiq üzü görür. Otuz üç nümunədən ibarət bu toplu milli musiqi folklorumuzun əsasını qoyur.

Beləliklə, M.Maqomayev geniş və çoxşaxəli fəaliyyəti ilə milli mədəniyyətimizin tarixində mühüm rol oynamışdır. Onun ölməz əsərləri Azərbaycan musiqi mədəniyyəti xəzinəsinin haqlı olaraq ən parlaq və qiymətli tövhələrindən sayılır.

Q.Qarayev həm Üzeyir bəyin, həm də M.Maqomayev yaradıcılığının Azərbaycan musiqisi üçün əvəzolunmaz bir rola malik olduğunu və klassik-bəstəkarlarimizin onların varisi olduqlarını bu cümlələrlə vurğulamışdır: "Üzeyir Hacıbəyov və onun yorulmaz məsləkdaşı M.Maqomayev Azərbaycan incəsənətində dərin iz salmışlar. Azərbaycan bəstəkarları Ü.Hacıbəyovdan və M.Maqomayevdən aldıqları estafeti irəli aparmaqda davam edir, xalqa namusla və fədakarlıqla xidmət göstərir, çoxmillətli sovet musiqi mədəniyyətinin daha da çiçəklənməsi üçün əllərindən gələni əsirgəmirlər".

ƏDƏBİYYAT

1. Qəmər İsmayılova / Müslüm Maqomayev. Bakı. Yazıçı. 1985, səh.7, 13,17-18, 46, 59 - 61

2. Azərbaycanın Elm və Mədəniyyət xadimləri biblioqrafiya. Müslüm Maqomayev. Bakı: Elm. 2000

3. Aida Hüseynova. M.Maqomayev haqqında. Bakı: Çinar çap - 2003

4. M.Məmmədova. M.Maqomayev arxivinin təsviri. Bakı: Nurlan. 2005 – 147 səh.

Məqalənin redaksiyaya daxil olma tarixi: 03.12.2019
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.12.2019
Məqalənin çapa qəbul olunma tarixi: 29.12.2019
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
sənətşünaslıq üzrə elmlər doktoru, dosent Ülkər Əliyeva
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.